Xalq qəzeti 2021.- 1 iyun.- S.4.

# Ağdamın gələcəyi göstərəcək ki, Azərbaycan necə şanlı qələbə qazanıb

***“Bu ilin payızında dövlət müstəqilliyimizin bərpasının 30-cu ildönümünü qeyd edəcəyik. Cümhuriyyətimizin isə 103 yaşı bu ay tamam oldu. Bəs 28 May bayram günü Ağdam şəhərində neçə il keçirilib? Dövlət səviyyəsində: 1919, 1992, 1993; xəlqi səviyyədə: 1920, 1991 və bəlkə orta sovet illərində gizli şəkildə, kiçik qruplarla... Üst-üstə üç il, beş il... Və budur, Ağdam azad olunub, müharibədən sonrakı ilk 28 May bayramı dövlət başçımız Ağdamda idi, şəhərin bərpasının təməl daşını qoyurdu! Bax, elə yalnız bu faktın özü bayrama bayram qatmaqdır!” Bu fikirləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dövlət başçımızın Ağdam səfərinə münasibət bildirərkən dedi. Ağdamla bağlı fikirlərinə davam edən Q.Paşayeva bunları da dedi:***



– Ağdam 6 ay öncə azad olunub. Onillər ərzində qurulmuş və erməni işğalı dönəmində vandalcasına dağıdılmış bir şəhərin xarabalıqları üzərində yeni bir şəhər inşa etmək çətin işdir. Özü də abad, yaşıl və planlı şəhər! Şəhərin baş planının qısa müddətdə hazırlanması da bir hadisədir. Bu hadisə özündə, siyasi iradə, mədəni səviyyə, iqtisadi güc və gələcəyə böyük baxış kimi amilləri yaradır. Bu amillərin hər hansı biri olmasaydı, 28 May günü Ağdamda təməlqoyma mərasimi də olmazdı. Müzəffər Ali Baş Komandanın növbəti müzəffəriyyətidir bu!

Azad olunmuş ərazilərdə bərpa - quruculuq işləri sürətlə davam edir. İşlər başlayıb, işğaldan azad olunmuş bütün ərazilər uyğun baş planlar əsasında bərpa olunacaq, yenidən qurulacaq. Dövlətlər var ki, bircə çoxkeçidli körpünü, bir şəhərciyi vaxtında tikib-qurtara bilmir. Müharibədən çıxmış ölkə üçün bu, o qədər də asan məsələ deyil. Nəzərə alaq ki, biz, necə deyərlər, adi müharibə etməmişik, ağır işğala son vermişik. Müharibə bizim ərazilərdə, ərazilərimizin dərinliklərində gedib. Özü də, düşmən yalnız cəbhədə deyil, hər yerdə dağıntıya, ölümə çalışır, infrastukturları raket atəşinə tuturdu. Gəncə, Tərtər, Bərdə, Naxçıvan, Goranboy, Naftalan, Yevlax, Mingəçevir, Qəbələ, Xızı – hər tərəfə raket atırdı düşmən... İstifadəsi qadağan edilmiş raketlər ölüm saçırdı.

Beynəlxalq informasiya aləmində də hücum hücum ardınca davam edirdi və bütün basqılara, təhdidlərə baxmayaraq, yenə Azərbaycanın dövlət-xalq birliyi qalib gəldi. O yüksək zəfərin ardınca, azad olunmuş torpaqlarımız minalarla dolu, xarabazarlıq olaraq çıxdı qarşımıza. Düşmən düşmənçiliyi də ləyaqətlə apara bilməmişdi. İndi təsəvvür edin: ərazində müharibə gedə, şəhərlərin dağıla, torpağın minalana... bunun üzərindən 6 ay kimi qısa bir zaman keçə və quruculuğa başlayasan. Bu unikal işdir! Qürur duyuruq!

Qarabağda infrastruktur quruculuğu işğalın ardınca başlasa da, məhz Ağdamda şəhərin təməlinin atılması bir başqa hadisədir. Ağdam Ağdam olduğu gün separatizm və işğalçı törtöküntülərin tabutuna son mıx vurulmuş olacaq.

Prezident nəyi, nə zaman, harda və necə etmək lazım olduğunu Ağdamın bərpasına münasibətlə bir daha sübut etdi: Ağdam şəhəri məhz Baş Plan əsasında yenidən qurulacaq. Ağdamın tanınmış şəxsləri Baş Planla tanış olacaq, onların təklifləri də nəzərə alınacaq – bunun bildirilməsi çox önəmli məqamdır.

Ağdam şəhərinin yenidən quruluşuna 140 illik tarixə malik 1 saylı məktəbdən başlanması rəmzi məna daşıyır. Bu, gələcək nəsillərə ismarıcdır. Bu, tarixə, irsə xüsusi qayğının ifadəsidir. Biz, Ağdamın, Qarabağın gələcəyini təhsil, təlim-tərbiyə və elmlə sıx bağlılıqda görürük. Ağdamın, Qarabağın, ümumən ölkəmizin gələcəyini savadlı gənc nəsillərin etibarlı əllərinə təslim edirik. Gələcək gənclərindir. O böyük, xoşbəxt gələcəyin quruculuğunda mədəniyyətə, tarixə, Azərbaycan həqiqətlərinə xüsusi önəm verilməsi – işğalın izlərini və zəfərimizi dərindən ehtiva edən muzeyin yaradılması dediklərimizə sübutdur. Nadir Çörək Muzeyi öz qapılarını yenidən işçilərin, heyranlarının, mütəxəssislər və turistlərin üzünə açacaq. Qapı o qapı, muzey o muzey olmayacaq, amma ruh eyni olacaq, qonaqpərvərlik, sənətpərvərlik, çörəyə, çörəkçiyə, alın tərinə saygı, qayğı həminki olacaq... Şəhər yaşıl şəhər olacaq, ağıllı şəhər olacaq. Kənd təsərrüfatına əlçatan, Sənaye Parkından uzaq olmayan şəhər olacaq Ağdam şəhəri. Ağdamda yaşamaq bir qürur ünvanı olacaq. Ağdama şahanə dönüş, bütün məkrli plan “usta”larının da çöküşü olacaq!

Həmsöhbətim dövlətimizin Qarabağla bağlı başladığı və gələcək üçün nəzərdə tutduğu abadlıq, quruculuq işlərindən söz açaraq dedi:

– Dövlətimizin Qarabağa baxışının, quruculuq strategiyasının özünəməxsusluğu var. Bu strategiyada hər şəhərin, hər kəndin öz yeri var. Füzulidə beynəlxalq aeroport tikilir; Zəngilan mühüm beynəlxalq dəmiryol qovşağına sahib olacaq; Laçında da aeroport tikiləcək; Şuşa Mədəniyyət Paytaxtımızdır – şəhər haqqında ayrıca qanun artıq qəbul edilib; Kəlbəcər, yəqin dörd mövsüm turizmin, o cümlədən, müalicə turizminin döyünən qəlbinə çevriləcək və s. Hər bir kənd, hər rayon, şəhər öz tarixinə, tarixçəsinə, sərvətlərinə, çağdaş həyatın tələblərinə uyğun yenidən şəkilləndiriləcək. 28 Mayda dövlət başçısının yeni təməllərini atdığı Ağdam şəhəri də öz şanlı qədim tarixi və bu günü ilə Qarabağın abadlığında özünəxas yerə, mövqe və rola sahib olacaq. Ağdam ruhlar şəhəri deyil artıq, ruh dirçəldən şəhər olacaq və sözün həm fiziki, həm mənəvi planında enerji qaynağına dönəcək.

Ümumiyyətlə, Qarabağ bir başqa Qarabağ olacaq. Qarabağımız “yaşıl enerji” zonası olacaq. Bütün şəhərlər “ağıllı şəhər” konsepsiyası əsasında qurulacaq. Qarabağ başdan-başa erməni vandalizminin izlərini daşıyır. Özümüzün də, başqaların da bizi unutqan kimi xarakterizə etdiyini çox eşitmişik. Unutmağa haqqımız yoxdur. Bu, bir daha soyqırımlar, fəlakətlər yaşanmaması üçündür. Ermənilərin törətdiyi insanlıq suçlarını gələcək nəsillər də görməli, duymalı, bilməlidir. Yeni Ağdam şəhər muzeyində Xocalı soyqırımı, dinc sakinlərin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması – bizim suyumuzu içib, çörəyimizi yeyənlərin iç üzü sərgilənməli, dünya tərəfindən görülməlidir. Bizim qonaqpərvərliyimizdən quduranlar, tam əsassız yerə bizə nifrətlə böyüdülmüş ermənilər həqiqətlə üzləşməlidir. Çağdaş dünya insanı, mədəni millət, qədim xalq Ağdamda, müharibədə atəşkəs əldə edildikdən sonra yeni Xirosima, Naqasaki timsalı yaratmalıydımı? Belə qonşu, belə müharibə, belə vandallıqmı olar? Çağdaş dünyada heç kəs belə alçaqlıq etməyib. Ermənistan həm indiki, həm gələcək nəsillər qarşısında da cavab verməlidir. Ağdam cavab meydanıdır, tarixi imtahan meydanıdır. Ağdam ağ günlərinə qayıtdıqca daha gur səslə soruşacaq, tələb edəcək. Ağdam Azərbaycanın, ağdamlılar azərbaycanlıların ümumi fikrini ifadə edəcək. Ermənistanın, ermənilərin cavabı, ya üzr istəmək, təzminat ödəmək olmalıdır, ya da tarix səhnəsindən cəhənnəm olub getməldirlər. Ən adil seçənək budur. Mehriban qonşuluğu, birgəyaşayışı qəbul etməyənlərin əli ilə bölgəmizin daha bir faşizm görməsi, yaşaması ümumdünya fəlakəti olar.

Komitə sədri sonda Ağdamın gələcəyi ilə bağlı fikirlərini açıqladı:

– Ağdamın bu günü kimi gələcəyi də bir daha göstərəcək ki, Azərbaycan necə bir şanlı qələbə qazanıb. Bizim qələbə ümumbəşəri mahiyyət daşıyır. Faşizm yalnız bir xalqa qarşı yönəlmir– zor gücünə yayılma, talan, vandallıq, başqalarına xas və aid olanların sıradan çıxarılması, özünü ari xalq hesab etmək, başqalarına haqq-hüquq tanımamaq – bu faşizmin üzüdür və Ermənistanın timsalında onun başını biz əzmişik! Bəli, böyük qələbə sayəsində bütün dünya ölkəmizin gücünə şahidlik etdi! “Uğurlarımızın əsasında güclü dövlət və müstəqil siyasət dayanır. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü və müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi”. Və “Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək!”

Açığı, dövlət başçısının bu mükəmməl sözlərinə nə isə əlavə etməyi doğru saymıram və məhz bu cümləni bu yazı üçün də ən yaxşı ümumiləşdirmə hesab edirəm. Dövlətimiz var olsun!

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***